# Möhtəşəm idman bayramı – Avropa Gənclər Yay Olimpiya Festivalı

## Azərbaycan növbəti beynəlxalq festivala da uğurla evsahibliyi edir



**Azərbaycan müstəqillik dövründə böyük beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində zəngin təcrübə toplayıb. Bu tədbirlər təkcə siyasi, iqtisadi, sosial, elmi, yaxud mədəniyyət forumlarını deyil, həm də idman sahəsini əhatə edir. Bakı Beynəlxalq Humanitar Forumu, Qlobal Bakı Forumu, “Formula-1” yarışları, “Eurovision” və digər müxtəlif səpkili tədbirlər ölkəmizdə müsbət ajiotajla, geniş ictimai fəallıqla başa çatıb. Beynəlxalq əhəmiyyət daşıyan bu tədbirlər haqqında xarici KİV-də kifayət qədər təqdiredici materiallar dərc edilib, yüksək təşkilatçılığa görə Azərbaycana minnətdarlıq bildirilib. Bu il iyulun 21-dən 27-dək isə Azərbaycan XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir. Artıq ayrı-ayrı idman növləri üzrə yarışlar başlanıb, ilk medallar qazanılır.**

Eyni zamanda, dünyada idman ölkəsi kimi şöhrət qazanmış Azərbaycan Respublikası son illərdə öz ərazisində bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, qadınlararası dünya çempionatı və s. kimi mühüm idman tədbirlərini də uğurla keçirib. Bütün bunlar beynəlxalq aləmdə Azərbaycanın sülhsevər, tolerant, bütün dünyaya açıq ölkə kimi tanıdılmasını təmin edib. Şübhəsiz ki, bu imicin formalaşdırılmasında Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu xarici siyasət müsbət rol oynayıb.

Dövlət başçımızın siyasəti ölkədə, regionda və dünyada sülhün bərqərar olmasına, Azərbaycanın milli maraqları baxımından mühüm əhəmiyyət daşıyan Avropaya inteqrasiya kursunun reallaşmasına xidmət edir. Bu gün bu siyasətin müsbət nəticələri də göz önündədir. Məhz bu siyasət nəticəsində Azərbaycan istər keçmiş sovetlər məkanında, istərsə də Cənubi Qafqazda sülh və sabitlik adasına çevrilib. Ölkəmiz özünün təbii sərvətləri, xüsusən neft və qazı ilə həm özünü, həm tərəfdaş ölkələri təmin edir, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir.



Azərbaycanın idmanla bağlı həyata keçirdiyi siyasət də dünyada və regionda sülh və əmin-amanlıq ideyalarına xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti ilə dünyaya nümayiş etdirir ki, ölkəmiz dinc və sabit bir məkandır, buradan heç kəsə hər hansı təhlükə yoxdur, bu məkanda insanlar sülh şəraitində yaşamaq, iqtisadiyyatı inkişaf etdirmək, neft və qaz kimi sərvətləri dostları ilə bölüşmək arzusu ilə yaşayırlar. Eyni zamanda, Azərbaycan ölkənin hər yerində idman meydançaları, Olimpiya mərkəzləri yaradıb ki, bundan təkcə özü yox, dostları da istifadə etsin. Bax, respublikamızın XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi etməsi də bu qayədən qaynaqlanır.

Festivalın açılışına qədər ölkədə böyük hazırlıq işləri görülüb. İyulun 21-də XV Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi son hazırlıq işləri ilə bağlı mətbuat konfransı keçirib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov bildirib ki, yarışların keçirildiyi idman obyektləri və Atletlər kəndi festivala tam hazır vəziyyətdədir. 7 gün ərzində 48 ölkənin idmançıları mükafatlar uğrunda mübarizə aparacaqlar.

Nazirin sözlərinə görə, bu günə kimi yarışlara 6750 bilet satılıb. Bəzi yarışlar üçün biletlərin 60 faizi, bəziləri üçün isə 50 faizi satılıb. Açılış və bağlanış mərasimlərinə biletlər də tam satılıb. Festivalda Azərbaycanı 122 idmançı təmsil edir. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. “Bakı-2019”-da atletlər idmanın 10 növü -- gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınamaqdadırlar.

Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç də Bakının festivalın keçirilməsinə tam hazır olduğunu və bundan məmnunluq duyduğunu bildirib. Onun fikrincə, Bakı özündə əsas komponentləri – yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. Avropa Olimpiya Komitələri Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki də qeyd edib ki, tədbir yüksək səviyyədə təşkil edilib.

Tədbirə hazırlığın mühüm göstəricilərindən biri də burada yerli mütəxəssislərin peşəkar iştirakıdır. Hazırda XV Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsində 500 yerli mütəxəssis çalışır. Bu peşəkar heyət “Bakı-2015” birinci Avropa və “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarında çalışmış mütəxəssislərdir.

Bundan əlavə, festivalda 2500 könüllünün çalışdığı məlumdur. Atletlər və rəsmi nümayəndələr üçün 325 nəqliyyat vasitəsi ayrılıb. “Olimpiya mədəniyyəti və təhsil” proqramı çərçivəsində 5 min məktəbli Atletlər kəndində çalışmaqdadır. Şagirdlər idmançılarla görüşür və müxtəlif tədbirlərdə iştirak edirlər.

Xatırlatmaq yerinə düşər ki, Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını tanıtmaq, Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədilə Avropa Olimpiya Komitəsinin sabiq prezidenti Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülüb. Festival 14-18 yaş arasında gənc Avropa atletləri üçün yüksək səviyyəli çoxlu idman növlərini əhatə edən tədbirdir. Birinci festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. Bu tədbir iki ildə bir dəfə, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur.



Azərbaycanın müxtəlif əlaqədar dövlət qurumları da tədbirə yüksək səviyyədə hazırlaşıblar. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi festivalın keçirildiyi günlərdə gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Nazirlikdən bildirilib ki, oyunların keçirildiyi məkanlar keyfiyyətli və fasiləsiz telekommunikasiya, internet, mobil yayım və poçt xidmətləri ilə təmin edilib. Yarışların təşkil olunacağı məkanlara müvafiq EATS-lərdən fiber-optik kabellər çəkilib. İstifadəçilərin tələblərinə uyğun olaraq radiotezliklərin ayrılması və həmin radiotezliklərin maneəsiz işini təmin etmək məqsədilə ilkin radiomonitorinq həyata keçirilib.

Daxili İşlər Nazirliyi də festival zamanı həyata keçiriləcək təhlükəsizlik tədbirləri haqqında məlumat yayıb. Məlumata görə, yarışlarda iştirakçıların, qonaqların və tamaşaçıların təhlükəsizliyi baxımından müvafiq tədbirlər görülüb. İctimai qaydanın qorunması və təhlükəsizliyin təmini məqsədi ilə daxili işlər orqanlarının əməkdaşları yarışların keçirildiyi müddətdə gücləndirilmiş iş rejimində çalışacaqlar.

Bundan başqa, “Bakı-2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı Bakıda müəyyən edilmiş marşrut üzrə əsas yol şəbəkəsində “Festival zolağı”nın tətbiq edildiyi küçələr müəyyənləşib. “Festival zolağı”nın kənarlarına sarı xətt çəkilib, asfalt üzərində təyin edilən yerlərdə “Bakı-2019” loqotipi vurulub. Bu tədbir idmançıların və festivalın rəsmi iştirakçılarının yarış meydançalarına maneəsiz çatmaları məqsədilə həyata keçirilib.

“Bakı-2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalının nəqliyyat əməliyyatlarının icrası Bakı Nəqliyyat Agentliyi (BNA) tərəfindən həyata keçirilməkdədir. Məqsəd nəzərdə tutulan nəqliyyat əməliyyatlarını daha rahat və təhlükəsiz təşkil etmək, tədbirlərin keçirildiyi məkanlara gedərkən şəxsi nəqliyyat vasitəsindən istifadəni minimuma endirməkdir.

Qonaqların və atletlərin yarış və qeyri-yarış məkanlarına daşınmasına 136 ədəd “Neoplan” avtobus və 38 ədəd miniavtobus (“Mercedes Sprinter”) cəlb edilib. Avtobuslar müvafiq texniki müayinədən keçirilib. Daşımalarda iştirak edən 435 nəfər sürücü heyəti isə təlimlərə cəlb edilib. Qonaqların və yarış iştirakçılarının rahat və təhlükəsiz şəkildə nəqliyyat xidmətlərindən istifadə etməsi üçün proses vahid məkandan həyata keçirilir.

İyulun 21-də “Baku Crystal Hall”da festivalın təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaldıblar. Bundan sonra, demək olar ki, bütün Olimpiya tədbirlərinin açılış mərasimlərinin ənənəvi hissəsi olan atletlərin paradı başlayıb. Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil olublar. Sonra əlifba sırası ilə digər ölkələrin komandaları gəliblər. İdmançıların keçidini ev sahibi -- Azərbaycan atletləri tamamlayıblar. Üçrəngli bayrağımızı 15 yaşlı cüdoçu, 2018-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının və Avropa Kubokunun qalibi Vüqar Talıbov aparıb.

Tədbirdə çıxış edən XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov qonaqları salamlayaraq dost ölkələrdən gəlmiş idmançılara yarışlarda uğurlar arzulayıb. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç çıxış edərək bildirib ki, Bakıda qonaqlar özlərini evlərindəki kimi hiss edirlər. Bundan sonra Azərbaycan Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan edib.

Artıq yarışlarda iştirak etmiş bir sıra idmançıların, o cümlədən, Azərbaycan atletlərinin ilk qələbələr qazandığı məlum olub. İyulun 21-də Heydər Əliyev adına İdman Sarayında keçirilən Avropa Gənclər Yay Olimpiya Festivalının ilk qızıl medalını Azərbaycanın yunan-Roma güləşçisi Fərid Sadıqlı qazanıb. 45 kiloqram çəki dərəcəsində yarışın finalında türkiyəli Umut Çobana böyük hesabla qalib gələn gənc pəhləvanımız XV Avropa Gənclər Yay Olimpiya Festivalının çempionu olub.

Güləş yarışlarının birinci günündə sərbəst güləşçimiz Əbülfəz Nəsirov (55 kq) Azərbaycan milli komandasının dördüncü medalını qazanıb. Finalda italiyalı Simone Vinçenzo Piroddu ilə qarşılaşan pəhləvanımız 5:10 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənməli olub. Beləliklə, güləşçilərimiz festivalın birinci günündə 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar.

**Paşa ƏMİRCANOV,**
**“Xalq qəzeti”**